**““ŞAH çayının zəngin dadını hiss et və avtomobil qazan!” «OBA» ticarət şəbəkəsinin marketlərində**

## STİMULLAŞDIRICI TİRAJLI LOTEREYASININ ŞƏRTLƏRİ

### 1. Ümumi müddəalar

1.1.Lotereyanın Təşkilatçısı “Veysəloğlu” MMC-nin sifarişi ilə (bundan sonra – Sifarişçi) C141 Məhdud Məsuliyyətli Cəmiyyətidir (Sİ 141 MMC) (yerləşdiyi ünvan: AZ1025, Bakı, Azərbaycan, Ələddin Quliyev küç. 1131, Babək Plaza, ofis B6-06) (bundan sonra – Lotereyanın Təşkilatçısı).

1.2. Lotereyanın adı: **“ŞAH çayının zəngin dadını hiss et və avtomobil qazan”** (bundan sonra — «Lotereya»).

1.3. Lotereyanın forması: Tirajlı stimullaşdırıcı lotereya.

1.4. Lotereyanın keçirildiyi ərazi - Azərbaycan Respublikası, “OBA” marketlər şəbəkəsi.

1.5. Lotereyanın ümumi keçirilmə müddəti – 17 noyabr 2025-cü il tarixdən 15 yanvar 2025-cü il tarixədək (bundan sonra – «Lotereyanın keçirilmə müddəti»).

1.6. Lotereyanın rəsmi qaydaları (bundan sonra – Qaydalar) www.shahpromo.az saytında (bundan sonra – Sayt) və “Shah promo OBA 2025 Bot” adlı Telegram Botda.

yerləşdirilib.

1.7. Lotereya “Shah” əmtəə nişanına məxsus bütün çay növlərinə şamil edilir (bundan sonra – Lotereya məhsulu).

### 2. Lotereyanın iştirakçısı olmaq üçün fiziki şəxsin cavab verməli olduğu şərtlər

2.1 Lotereyada iştirak etmək hüququ Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan, ölkədə yaşamaq üçün icazəsi olan şəxslərə verilir. Onlar Lotereya keçirilən müddət ərzində Azərbaycan Respublikasının ərazisində daimi yaşayış yerinə malik olmalı və Lotereya keçirilən tarixlərə qədər 18 (on səkkiz) yaşı tamam olmalıdır (bundan sonra – Lotereya İştirakçısı).

2.2 Lotereya iştirakçısı yalnız bir mobil telefon nömrəsindən istifadə etməklə lotereyada iştirak edə bilər. Lotereya iştirakçısının lotereyada iştirak etmək üçün bir neçə mobil nömrədən istifadə etdiyi və ya digər saxtakarlıq üsullarına əl atdığı müəyyən edilərsə, həmin iştirakçı lotereya çərçivəsində hər hansı mükafat almaq hüququndan məhrum ediləcək. Bu halda Lotereya Təşkilatçısı həmin iştirakçının Lotereyada iştirakını dayandırmaq, eləcə də onun qazandığı mükafatları tam və ya qismən ləğv etmək hüququna malikdir.

2.3 Lotereyada iştirak etməklə, Lotereya İştirakçısı bu Qaydalarla tanış olduğunu və onlarla razılaşdığını təsdiq edir, həmçinin onların bütün şərtlərinə və tələblərinə riayət etmək öhdəliyini üzərinə götürür.

### 3. Lotereyanın iştirakçısı olmaq və hədiyyə qazanmaq şansını əldə etmək üçün aşağıdakıları yerinə yetirmək lazımdır:

3.1. Aksiya müddəti ərzində — 17 noyabr 2025-ci il saat 00:00:00-dan 15 yanvar 2026-cı il saat 23:59:59-dək (Bakı vaxtı ilə) — Azərbaycan Respublikasının ərazisində yerləşən “OBA” pərakəndə ticarət şəbəkəsinə aid marketlərdən minimum 6 AZN məbləğində lotereya məhsulları (SHAH markasının bütün növ çayları iştirak edir) almaq lazımdır.

3.2. Qəbzi qeydiyyatdan keçirmək aşağıda göstərilən üsullardan biri ilə mümkündür:

1. www.shahpromo.az saytında pulsuz qeydiyyatdan keçməklə – məlumatların daxil edilməsi yolu ilə: Ad, Soyad, Əlaqə telefonu, Yaşadığı şəhər və qəbzdəki QR kodun skan edilməsi.

2. “Telegram” sosial şəbəkəsində yerləşən «Shah promo OBA 2025 Bot» adlı Telegram Bot vasitəsilə pulsuz qeydiyyatdan keçməklə – məlumatların daxil edilməsi yolu ilə: Ad, Soyad, Əlaqə telefonu, Yaşadığı şəhər və qəbzdəki QR kodun skan edilməsi.

Daha sonra qəbzləri skan etmək üçün bota daxil olmaq kifayətdir, təkrar qeydiyyat tələb olunmur. Həmin botda əvvəl daxil edilmiş qəbzlərə görə alınan kodlar haqqında məlumat da əks olunur.

3.4. Qəbz qeydiyyatdan sonra lotereya bitənədək saxlanılmalıdır. Lotereya iştirakçısı hədiyyələri əldə etmək üçün aldığı qəbzləri lotereya başa çatanadək qoruyub saxlamalıdır. Qalib gəlmiş lotereya nömrəsi iştirakçının şəxsi kabinetində verilmiş nömrə ilə tam uyğun olmalıdır. Qaliblər mükafatlarını almaqdan əvvəl müvafiq qəbzləri təqdim etməlidirlər.

**4. Lotereya iştirakçılarının seçilməsi**

4.1. Hər bir fərdi lotereya nömrəsi ilə qeydiyyatdan keçmiş qəbz gündəlik uduşlarda iştirak edir. Moderasiyadan uğurla keçmiş hər bir qəbz 14 gün sonra əsas mükafat tirajında iştirak hüququ qazanır. İştirakçının bütün fəaliyyətləri onun şəxsi kabinetində əks olunur.

4.2. 14 gün sonra qəbz mövcud olmadıqda iştirakçı oyunda iştirak etmək və həmin qəbzlə keçirilən tirajlarda və əsas mükafatı almaq hüququndan məhrum edilir.

4.3. Eyni qəbzi Lotereya keçirilən bütün müddət ərzində sayta yalnız bir dəfə yükləmək mümkündür.

**5. Hədiyyə fondunun tərkibi və həcmi**

Lotereyanın hədiyyə fondu Lotereyanın sifarişçisinin pul vəsaitləri və əmlakı hesabına formalaşır və aşağıdakı hədiyyələrdən ibarətdir:

5.1. Hədiyyələr:

5.2. Gündəlik hədiyyələr:

- OBA kartının balansına 10 AZN – 1200 ədəd, hər gün 20 ədəd
- OBA kartının balansına 20 AZN – 300 ədəd, hər gün 5 ədəd
- OBA kartının balansına 40 AZN – 60 ədəd, hər gün 1 ədəd

5.3. Hədiyyələr:

Changan UNI-Z avtomobili – 1 ədəd, tiraj 02 feval 2026-cı ildə keçiriləcək (Avtomobilinın həqiqi rəngi reklam materiallarında göstəriləndən fərqli ola bilər)

**6. Hədiyyə fondunun oynanılmasının keçirilməsi qaydası, həmçinin Lotereya qaliblərinin müəyyən edilməsi qaydası və hədiyyələrin verilməsi qaydası**

6.1 Gündəlik uduşların tirajı 18.11.2025–18.01.2026 tarixləri arasında, istirahət və bayram günləri istisna olmaqla, hər gün keçirilir. Əgər müəyyən edilmiş tiraj tarixləri istirahət və ya bayram günlərinə təsadüf

edərsə, Təşkilatçı gündəlik tirajı ilk iş gününə keçirmək və bir gündə bir neçə tiraj keçirmək hüququna malikdir.

Gündəlik tiraj cədvəli

| | Bazar ertəsi | | çərşənbə axşamı | çərşənbə | cümə axşamı | cümə |
|---|---|---|---|---|---|---|
| noyabr | | | 18 | 19 | 20 | 21 |
| | 24 | 1 gündə 3 tiraj: 21, 22, 23 | 25 | 26 | 27 | 28 |
| dekabr | 1 | 1 gündə 3 tiraj: 28,29,30 | 2 | 3 | 4 | 5 |
| | 8 | 1 gündə 3 tiraj: 5,6,7 | 9 | 10 | 11 | 12 |
| | 15 | 1 gündə 3 tiraj: 12,13,14 | 16 | 17 | 18 | 19 |
| | 22 | 1 gündə 3 tiraj: 20,21 | 23 | 24 | 25 | 26 |
| | 29 | 1 gündə 3 tiraj: 26,27,28 | 30 | 31 | | |
| yanvar | | | | | 1 | 2 |
| | 5 | 1 gündə 3 tiraj: 2,3,4 | 6 | 7 | 8 | 9 |
| | 12 | 1 gündə 3 tiraj: 9,10,11 | 13 | 14 | 15 | 16 |

6.2 Əsas mükafatın tirajı 02 fevral 2026-cı il tarixində keçiriləcək.

**7. Hədiyyələrin lotereya qaliblərinə təqdim edilməsi qaydası və müddətləri**

**7.1. Hədiyyələrin verilməsi**

7.1. Lotereya qalibləri, moderasiyadan uğurla keçmiş və hədiyyə tirajlarında iştirak hüququ qazanmış iştirakçılar arasından seçiləcək. Hədiyyələrin verilməsi, tirajın keçirilməsindən sonra alış zamanı təqdim edilən qalib qəbz əsasında həyata keçiriləcək və qəbzin sayta yükləndiyi tarixdən etibarən 20 gün ərzində qəbzin mövcudluğu yoxlanılacaq.

7.2. Lotereya qalibləri lotereyanın təşkilatçısı olan “C141” MMC-nin ofisində, Bakı ş., Ələddin Quliyev küçəsi, Babək Plaza, blok B, 6-cı mərtəbə, 6-cı ofis ünvanda seçiləcək. Qaliblər gündəlik hədiyyələr üçün randomizerdən istifadə edərək iştirakçıların qəbzlərinin təsadüfi seçilməsi ilə müəyyən edilir. Əsas mükafatın qaliblər lototronun köməyi ilə iştirakçıların qəbzlərinin təsadüfi seçilməsi yolu ilə avtonom rejimdə çap olunmuş ayrı-ayrı kodlar arasında müəyyən olunur. Qalibin müəyyən edilməsi zamanı Lotereyanın təşkilatçısı hər bir mükafat üçün bir əsas və iki ehtiyat müəyyən edir.

7.3. Lotereya qaliblərinin tam siyahısı https://www.shahpromo.az/ saytının “Qaliblər” bölməsində tirajın keçirilməsindən 5 (beş) gündən gec olmayaraq yerləşdiriləcək.

7.4. Tirajın keçirilməsindən sonra qəbzlərin 14 günlük uğurlu moderasiyadan sonra 2 (iki) iş günü ərzində Lotereyanın qaynar xətt operatorları +994 997990197 nömrəsindən qaliblərlə əlaqə saxlayaraq onların əlaqə məlumatlarını, yəni qalibin şəxsi məlumatlarını, şəxsiyyəti təsdiq edən sənədin nömrəsini, yaşını və Lotereyanın keçirilməsi ilə bağlı digər zəruri məlumatları dəqiqləşdirəcəklər.

7.5. Qalibin yoxlanılması və mükafatın əldə edilməsi üçün, o, uduş barədə bildiriş aldığı andan etibarən 3 (üç) təqvim günü ərzində aşağıdakı sənədləri Lotereya Təşkilatçısına təqdim etməlidir.

1) şəxsiyyət vəsiqəsinin surəti;

2) Lotereya tirajında iştirak üçün məhsulun alındığını təsdiq edən qəbzin fotosu (yoxlama üçün) və mükafatın təqdim olunması zamanı qəbzin orijinalı;

3) Mobil tətbiqdən alınmış ekran görüntüsü – fərdi barkod və nömrə açıq şəkildə görünməlidir.

7.6. Hədiyyələr 5 fevral 2026-cı ildən gec olmayaraq təqdim ediləcək.

7.7. Gündəlik mükafatlar qaliblərin "OBA" ticarət şəbəkəsinin mobil tətbiqindəki loyallıq kartına köçürüləcək. Qalib Lotereya müddəti ərzində ümumilikdə 50 manatadək hədiyyə almaq hüququna malikdir.

7.8. Qalibə mükafat, qalibiyyət barədə məlumat verildikdən sonra 20 gün ərzində, şəxsiyyət vəsiqəsinin (pasportun) orijinalı və alış qəbzinin orijinalı təqdim edildikdən sonra verilir.

7.9. Baş mükafat qalibə yalnız şəxsiyyətin Lotereyanın şərtlərinə uyğun yoxlanılmasından, alış qəbzinin orijinalının təqdim edilməsindən və qalibin Bakı şəhərində şəxsən iştirak etməsindən sonra təqdim olunur.

7.10. Baş mükafat nağd pul ekvivalentində təqdim edilmir.

7.11. Əgər Lotereya Təşkilatçısından asılı olmayan səbəblərə görə, qeydiyyat zamanı göstərilmiş mobil nömrələr vasitəsilə Lotereya iştirakçısı ilə 2 gün ərzində əlaqə saxlamaq mümkün olmazsa, eləcə də operatorun zəngindən sonra iştirakçı 7.5-ci bənddə göstərilən məlumatları 2 gün ərzində təqdim etməzsə, həmin iştirakçı hədiyyə almaq hüququnu itirir. Hədiyyə almaq hüququ Lotereyanın şərtlərinə uyğun olaraq ehtiyat qaliblərə keçir.

7.12. Lotereya qalibləri tərəfindən şərtlərin yerinə yetirilməməsi və mükafatların alınma müddətinə əməl edilməməsi halında, mükafatın verilməsindən imtina oluna bilər və/və ya qalib həmin mükafatı almaq hüququndan məhrum edilə bilər. Bu halda mükafat almaq hüququ Lotereyanın şərtlərinə uyğun olaraq ehtiyat qaliblərə ötürülür.

7.14. Bu Qaydalarda nəzərdə tutulmuş hallar istisna olmaqla, lotereya iştirakçılarına mükafatlar təqdim olunmayacaq. Əgər Lotereya iştirakçısı hədiyyədən imtina edərsə, bu Qaydaların tələblərini yerinə yetirməzsə və ya hədiyyəni müəyyən olunmuş müddətdə və qaydada almazsa, o, hədiyyə almaq hüququnu itirir və həmin hədiyyə Lotereya qalibinə məxsus olsa belə, Lotereya Təşkilatçısında qalır.

7.15. Əgər Lotereya Təşkilatçısı qaliblərdən tələb olunan sənədləri uduş barədə məlumatın verildiyi tarixdən etibarən 90 (doxsan) iş günü ərzində ala bilməzsə, qalib hədiyyə almaq hüququndan məhrum edilir və Lotereya Təşkilatçısı həmin hədiyyədən öz mülahizəsinə uyğun şəkildə istifadə etmək hüququna malik olur.

**8. Lotereyanın ümumi şərtləri**

8.1. Hazırkı qaydalarla https://www.shahromo.az/ saytında tanış olmaq olar.

8.2. Lotereya iştirakçıları qeydiyyat zamanı adlarını, ata adlarını, soyadlarını, fotoşəkillərini, video, audio və digər materialları təqdim edir və bununla da öz məlumatlarının Lotereyanın təşkilatçısı tərəfindən Lotereyanın keçirilməsi ilə əlaqədar bütün reklam və (və ya) informasiya materiallarında istifadə edilə biləcəyini təsdiq edir.

8.3. Lotereya iştirakçısı öz adını, soyadını, ata adını, doğulduğu tarixi və Lotereyada iştirak üçün İştirakçı tərəfindən qeyd olunan ünvanı qeyd etməklə razılığın geri götürülməsi haqqında imzalanmış yazılı bildirişi qeydiyyat məlumatları ilə birlikdə AZ1025, Bakı, Azərbaycan, Babək prospekti, Ələddin Quliyev küçəsi, 1131-ci məhəllə, Babək prospekti, ofis B6-06 ünvana göndərməklə lotereyada iştirak haqqında razılığını geri götürə bilər.

8.4. Razılığın geri götürülməsi haqqında bildirişi aldıqdan sonra Lotereyanın təşkilatçısı və onun müvəkkil etdiyi şəxslər belə İştirakçının fərdi məlumatlarının emalını dayandırır və bildirişi aldığı gündən etibarən beş iş günü ərzində onun fərdi məlumatlarını məhv edir.

8.5. Lotereya Təşkilatçısı, Lotereya İştirakçısının şəxsi məlumatlarının onun tərəfindən geri götürülməsindən (silinməsindən) sonra məhv edilməsi nəticəsində tirajla bağlı hərəkətlərin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır.

8.6. Sifarişçi və Lotereya Təşkilatçısı, fors-major hallar və/və ya onlardan asılı olmayan digər səbəblər nəticəsində Lotereyanın keçirilmə müddətinin bitməsi və ya dəyişdirilməsi hallarına görə məsuliyyət daşımırlar.

8.7 Bütün suallarla bağlı +994 997990197 telefonuna müraciət edə bilərsiniz (zəng ödənişlidir, whatsapp ödənişsizdir).